**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**CƏMALƏ MEHMAN QIZI ƏSGƏROVA**

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCANDA ÇOXPARTİYALI SİSTEMİN YARANMASI
## (1991-2008)

**İxtisas: 5503.02 – Vətən tarixi**

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

# A V T O R E F E R A T I

**B A K I – 2014**

*Dissertasiya işi Bakı Dövlət Universitetinin "Azərbaycan tarixi (humanitar fakültələr üzrə)" kafedrasında yerinə yetirilmişdir.*

**Elmi rəhbər:**
tarix üzrə elmlər doktoru, professor **S.Y.SÜLEYMANOVA**

**Rəsmi opponentlər:**
tarix üzrə elmlər doktoru, professor **F.N.MƏMMƏDOV**

tarix üzrə fəlsəfə doktoru **E.Ə.MƏHƏRRƏMOV**

**Aparıcı müəssisə:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan tarixi" kafedrası

Müdafiə "13__"__12_ 2014-cü il saat "___"-da Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcələri almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasında keçiriləcəkdir.

**Ünvan:** AZ-1148, Bakı şəhəri, Z. Xəlilov küçəsi, 23

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "____"____________2014-cü ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi
tarix üzrə elmlər doktoru, professor **S.Y.SULEYMANOVA**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XX əsrin 80-ci illərinin sonundan etibarən keçmiş SSRİ-də başlanan demokratikləşmə prosesi, fikir plüralizminin tədricən bərqərar olması Azərbaycan SSR-nin də ictimai-siyasi həyatında özünü büruzə verməyə başladı. Cəmiyyət daxilində azad fikir və siyasi iradəni ifadə edə bilən yeni siyasi partiyaların meydana gəlməsi dönməz xarakter aldı.

Kommunist partiyasının inhisarçı təkhakimiyyətliliyi şəraitində cəmiyyətin idarə olunmasının inzibati-amirlik və avtoritar üsullarından imtina etmək də özündə müxtəlif siyasi baxışları birləşdirən partiyaların yaranması yolu ilə mümkün idi. Bu baxımdan demokratik cəmiyyət quruculuğunun mütləq komponenti kimi siyasi partiyaların formalaşması və təşəkkülü tarixini izləmək ciddi elmi əhəmiyyət kəsb edir. Demokratik cəmiyyətdə siyasi partiyalar cəmiyyətlə dövlət arasında vasitəçi rolunu oynayırlar ki, bu da cəmiyyətin siyasi maraqlarının strukturlaşmasında onların rolunun artması ilə bağlıdır.

Cəmiyyət totalitar idarəçilik rejiminin təsiri altında olduğu halda onun daxilində normal siyasi vəziyyətin formalaşmasını təmin etmək mümkün deyil. Ölkəmizdə fəaliyyət göstərən siyasi partiya əslində adı "Sovet İttifaqı Kommunist partiyası" olan Rusiya Kommunist Partiyasının bir əyalət bölməsi idi. Burada müstəqil siyasi partiyaların yaranması ancaq dövlət müstəqilliyi bərpa olunduqdan sonra baş vermişdir. Müstəqilliyə qədəm qoyan ölkəmizdə yeni iqtisadi münasibətlərlə yanaşı, ona uyğun dövlət quruluşu və siyasi sistem də formalaşmağa başlamışdı. Təbii ki, bu sistemin əsasını vətəndaşların könüllü siyasi birlikləri təşkil etməli idi.

1988-ci ildən başlayan Azərbaycan milli azadlıq hərəkatı Respublikanın müstəqilliyinə nail olmaq və bundan sonra yeni dövlətin iqtisadi inkişafı, burada azad, demokratik cəmiyyətin yaradılması, şəffaf seçkilərə nail olunması və beynəlxalq demokratik təsisatlara inteqrasiyanı qarşısına başlıca məqsəd qoymuşdu. Bu məqsədə çatmağın yolunu müxtəlif ideyalarda görən fərqli baxışlı şəxslərin ayrı-ayrı siyasi qurumlarda mübarizəsini davam etdirməsi tezliklə ictimai hərəkatın radikallara və liberallara parçalanmasına səbəb oldu. Buna baxmayaraq Milli Azadlıq Hərəkatında yalnız bir ideya – Azərbaycanın müstəqilliyi ideyası hakim idi.

1989-cu ilin sonu – 1990-cı illərin əvvəlləri Azərbaycanda siyasi mübarizənin kəskinləşməsi və ümummilli böhranın güclənməsi ilə səciyyələnirdi. Ermənistanın təcavüzünə qarşı daha da fəallaşan mübarizədə milli azadlıq hərəkatı Azərbaycan dövlətçiliyinin bərpası ilə nəticələndi. İlk öncə xalqın təzyiqi ilə Respublika Ali Sovetinin 1989-cu il sentyabrın 23-də

toplanmış sessiyası «Azərbaycan SSR-nin suverenliyi haqqında» Konstitusiya Qanunu qəbul etməyə məcbur oldu. 1990-cı ilin yanvarında Bakıda və digər bölgə və şəhərlərdə Qorbaçovun əmri ilə törədilən qırğınlar əhalinin Sovet İttifaqına olan bütün inamlarına son qoydu. Müstəqillik uğrunda mübarizə yeganə düzgün yol hesab edildi. 30 avqust 1991-ci ildə SSRİ tərkibində müttəfiq respublika statusunda olan Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" deklarasiya qəbul etdi. Bunun ardınca xalqın tələbi ilə Ali Sovetin 1991-ci il oktyabrın 18-də toplanmış sessiyası «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiyası Aktı»nı qəbul etdi. Beləliklə, Azərbaycan Respublikasının müstəqilliyi rəsmən bərpa olundu. Qarşıda duran əsas vəzifə elan olunmuş müstəqilliyi qoruyub saxlamaqdan ibarət idi. Bunun üçün vətəndaşlarla dövlət orqanları arasında yeni zəmində əlaqə yaratmağa ehtiyac var idi. Belə bir missiyanı isə siyasi partiyalar yerinə yetirə bilərdi.

Vətəndaşlar siyasi partiyalar və ictimai təşkilatlar vasitəsilə dövlətin idarə olunmasında fəal və birbaşa iştirak edə bilir, əhalinin müxtəlif təbəqələrinin maraqlarını əks etdirməklə, həmin maraqların dövlət idarəçilik qərarlarında, daxili və xarici siyasətdə ifadə olunmasına imkan yaradılırdı. Klassik demokratik ölkələrdə bunun üçün xeyli vaxt lazım gəlmişdi.

Kommunist partiyasının cəmiyyətin rəhbər və istiqamətverici rolunu təsbit edən SSRİ konstitusiyasının altıncı maddəsinin ləğvini çoxpartiyalılığa doğru gedən yolda atılan əsas addımlardan biri hesab etmək olar. VI maddə 1990-cı ilin əvvəllərində ləğv olundu.[1] Məhz bundan sonra siyasi partiyaların yaranması prosesi gücləndi.

Çoxpartiyalılığa keçidin Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşmasında əsas rol oynaması danılmazdır. SSRİ-nin tənəzzülü dövründə Azərbaycanda gələcək cəmiyyətin yeni subyekti kimi, siyasi klublar, xalq cəbhəsi və onun parçalanması nəticəsində rəngarəng siyasi partiyalar meydana gəlmişdi.

Hələ ötən əsrin əvvəllərinə nəzər yetirsək Azərbaycanda çoxpartiyalılığın yaranmasını və inkişafını aydın müşahidə etmək mümkündür. Siyasi partiyaların cəmiyyətdə rolu məsələsi hər zaman aktual olmuş və həm siyasətçilərin, həm də tarixçilərin diqqətini cəlb etmişdir. Amma Respublikamızda bu mövzunun tədqiqi yalnız müstəqilliyimizi bərpa etdikdən

[1] Kommunist və Fəhlə Partiyaları. İnqilabi Demokratik Partiyalar (ensiklopedik məlumat). Azərbaycan Sovet Ensiklopediyasının Baş Redaksiyası. Bakı: 1988, s.17.

sonra mümkün olmuşdur.

Azərbaycanda partiyaların yaranması və fəaliyyətini yalnız XX əsrin sonlarına şamil etmək düzgün olmazdı. Hələ XX əsrin əvvəllərində qoyulmuşdu. Rusiyanın müstəmləkə əsarəti altında olan Azərbaycanda siyasi proseslərin formalaşması üçün siyasi mübarizə aparılmış, milli hərəkat ideyasının yaranması və milli azadlıq hərəkatı bir sıra çətinliklərlə qarşılaşmışdır. Buna baxmayaraq baş verən hadisələrin tədqiqi Azərbaycan tarixşünaslığının mühüm vəzifələrindən biridir.

Vətənpərvər qüvvələrin siyasi fəaliyyəti nəhayət Azərbaycan Cümhuriyyətinin yaradılması ilə nəticələnmişdi. O bütün müsəlman şərqində ilk demokratik respublikanın və parlamentin əsasını qoymuşdur. Bu parlamentdə vətəndaş cəmiyyətinə xas olan müxtəlif siyasi partiya və ictimai təşkilatlar öz baxış və maraqlarını ifadə edə bilirdilər. İki ilə yaxın fəaliyyət göstərən Azərbaycan Cümhuriyyətinin irsilik baxımından tarixi əhəmiyyəti son dərəcə böyükdür.

XX əsrin 80-ci illərinin sonundan etibarən Azərbaycanda formalaşmağa başlayan çoxpartiyalılığın inkişafını müəyyən dərəcədə əsrin əvvəllərində yaranan partiyaların bərpası və davamı kimi qəbul etmək olar. Lakin yeni yaranan partiyalar fərqli tarixi şəraitdə yeni əsaslar üzərində yaranmaqdaydı.

Həmin dövrdə çoxpartiyalılığın formalaşması prosesi düzxətli deyil, müxtəlif ideyaların toqquşması fonunda baş verirdi. Bu isə cəmiyyət naminə hərtərəfli araşdırmalara, fikir plüralizminə, vətəndaş cəmiyyətinin formalaşmasına və islahatlar yolu ilə Azərbaycan cəmiyyətinin dəyişilməsinə gətirib çıxarırdı.

1992-ci il iyunun 3-də Azərbaycan Respublikasında "Siyasi partiyalar" haqqında qanun qəbul edildi. Bu qanunla Azərbaycan çoxpartiyalılıq yolunu seçmiş oldu.

Azərbaycan Respublikası Milli Məclisinin siyasi partiyalarla bağlı qanunu ölkədə siyasi partiyaların yaranması və fəaliyyətinin hüquqi əsasını müəyyənləşdirdi.

Qanunda siyasi partiyaların yaradılmasının başlıca şərtləri, onların əsas funksiyaları, vəzifələri və hüquqları göstərilmişdir. Burada müstəqilliyimizin, ərazi bütövlüyümüzün qorunması, sivilizasiyalı, demokratik, hüquqi dövlət qurulması uğrunda mübarizə ön plana çəkilmişdir.

Nəticədə müasir dövrdə siyasi səhnədə fəaliyyət göstərən çoxsaylı partiyalar yarandı. Bununla da Respublikamızda ictimai hərəkatların, siyasi partiyaların yaranması və fəaliyyəti üçün geniş hüquqi baza yaradıldı.

Mövzunun aktuallığını şərtləndirən amillərdən biri də siyasi sistemin

dəyişilməsi ilə əlaqədar olaraq siyasi partiyaların cəmiyyətdəki rolunu, dövlət quruculuğunda onların iştirak etmə dərəcələrini və xalqın istəyinin hakimiyyətdə öz əksini tapması prosesini tədqiqetmə zərurəti ilə bağlıdır.

Azərbaycanın müasir həyatında siyasi partiyalar siyasi prosesdə subyekt kimi fəaliyyət göstərirlər. Məhz bu səbəbdən də çoxpartiyalılığa elmi mövqedən yanaşaraq onların əsas xüsusiyyətlərini, inkişaf dinamikasını, siyasi sabitlikdə səmərəliliyini göstərmək vacibdir.

Siyasi partiyalar vasitəsilə vətəndaşların hüquq və azadlıqları ifadə olunur, kollektiv addımlar atılır, seçkiqabağı tədbirlər keçirilir, ictimai fikir təqdim olunur.

Respublikanın Milli Məclisi çoxpartiyalı sistem əsasında fəaliyyət göstərir, ölkədə siyasi sabitlik və milli mənafe naminə siyasi qüvvələrin birliyini təcəssüm etdirir. Çoxpartiyalılıq sistemində partiyalar ümummilli məsələlərə münasibətdə vahid mövqedən çıxış edirlər.

Azərbaycanda çoxpartiyalılığa keçidin spesifik xüsusiyyətləri vardır. Bu xüsusiyyətlərdən biri elə ölkəmizdə uzun müddət yalnız bir siyasi partiyanın – hakim kommunist partiyasının mövcud olması və bu partiyanın qərarlarına boyun əymək məcburiyyəti idi.

Elektoratın – siyasi cəhətdən fəal kütlənin zəifliyini də bu spesifik xüsusiyyətlərə şamil etmək olar. Azərbaycanda partiya institutlaşma prosesində daha çox qeyri-adi rəhbər amilinin həlledici rol oynaması, siyasi partiyaların əsasının 1988-1990-cı illərdə ümumxalq hərəkatının məhsulu olması, ölkəmizin ərazisinin xeyli hissəsinin erməni təcavüzkarları tərəfindən işğal edilməsi, iqtisadiyyatın böhran vəziyyətində olması, eləcə də yeni yaranan partiyaların öz fəaliyyət proqramlarında ilk növbədə müharibə və iqtisadiyyat kimi ümummilli problemlərlə bağlı müddəaları əks etdirmək məcburiyyətində qalmaları ilə fərqlənirdi.

Azərbaycan Respublikasında siyasi partiyaların mövcud olması üçün lazımi siyasi şərait yaratmaq prosesi davam edir. 1995-ci ildə referendum yolu ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasına əsasən hər kəs istənilən birlik və siyasi partiya yaratmaq, mövcud birliyə daxil olmaq hüququna malikdir və siyasi azadlıq tam təmin olunub.

Azərbaycan Respublikasının Konstitusiyasında 2002-ci il avqustun 25-də referendum yolu ilə edilmiş müvafiq əlavə və dəyişikliklər siyasi partiyaların gələcək fəaliyyətində köklü dəyişikliklərə səbəb olmuşdur. Həmin dəyişikliyə əsasən siyasi partiyalar Milli Məclisə keçirilən seçkilərdə yalnız mojaritar qaydada iştirak edə bilərlər.

Azərbaycanda digər ölkələrdə rast gəlinməyən torpaqların işğalı, müharibə, milli azadlıq hərəkatı xaos və vətəndaş qarşıdurması həddində olan

tamamilə fərqli bir partogenez mühiti olmuşdur.

Azərbaycanda partiyaların yaranmasının tədrici-təkamül yolu olması mühüm əhəmiyyət kəsb edir və mövzunu daha da aktuallaşdırır.

Tədqiq olunan mövzunun aktuallığını göstərən faktlardan biri də Azərbaycanda çoxpartiyalılığın inkişafı və bərqərar olunması üçün şəraitin artıq formalaşmasıdır.

**Tədqiqatın xronoloji çərçivəsi:** Azərbaycan tarixinin mühüm dövrünü - XX əsrin 80-90-cı illərini və XXI əsrin əvvəllərini əhatə edir. Bu dövrdə sovet modeli özünü tükətmiş, demokratiyanın "yeni modeli" anlayışı əmələ gəlmişdir. Seçilmiş dövr totalitar mərhələnin süqutunu və siyasi partiyaların formalaşaraq siyasi arenaya çıxışını qeyd etməyə imkan verir. Məhz həmin dövrdə siyasi sistemdə baş verən böhran Kommunist Partiyasının nüfuzunun azalmasına və SSRİ-nın dağılmasına gətirib çıxarmışdı.

**Mövzunun öyrənilmə səviyyəsi.** Müstəqil Azərbaycan Respublikasında çoxpartiyalılığın yaranması və inkişafı probleminə müxtəlif profilli mütəxəssislər – politoloq, hüquqşünas və sosioloqlar tərəfindən daha çox maraq göstərilməsi bu problemin post-totalitar cəmiyyətlərdə ilk illərdə az tədqiq olunması ilə izah olunur. Sovet tarix elmində belə bir tədqiqat obyekti mövcud deyildi.

Azərbaycan uzun illər Sovet İttifaqının tərkibində olduğu üçün demokratik ənənələrə yiyələnə bilməmişdi. Şübhəsiz ki, bu, Kommunist partiyasının hakimiyyəti altında birpartiyalı siyasi sistemin mövcud olması ilə əlaqəli idi. İlk növbədə mərkəzləşdirilmiş bürokratik idarəetmə sistemi özünün daxili islahatları ilə qeyri-standart vəziyyətləri öz xeyrinə neytrallaşdır mağa çalışırdı.

Bütün bu amilləri nəzərə alan tədqiqatçılar sovet dövründə real ümumi siyasi vəziyyətin tədqiq edilməsi əvəzinə, hakim partiyanın qərarlarını şərh etməklə məşğul olurdular.

Tədqiq olunan mövzunun tarixşünaslığı təhlil edilərkən siyasi sistem və siyasi partiyaların fəaliyyəti ilə bağlı dünya ənənələrinə həsr olunan nəşrlər, parlament, icraedici hakimiyyət orqanlarında və yerli özünüidarəetmədə onların fəaliyyətini, avtoritarlıqdan demokratiyaya keçidin xüsusiyyətlərini əks etdirən elmi əsərlər əsas götürülüb. Sosial və siyasi proseslərin dərindən araşdırılması ilə bağlı başlıca elmi yanaşmalar obyektiv qiymətləndirilərək, təhlil edilib.

Artıq 80-ci illərin ortalarından başlayaraq məsələnin metodoloji problemlərinin sovet siyasi cəmiyyətində araşdırılması, Kommunist partiyasının buradakı yeri, rolu və onun inkişaf perspektivlərinin nəzərdən keçirilməsi müşahidə olunmaqdaydı.

Araşdırılan elmi ədəbiyyatın təhlili göstərir ki, siyasi tədqiqat obyekti kimi siyasi partiyaların nəzəri məsələləri bir çox alimlər tərəfindən tədqiq edilmişdir.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra bir çox tədqiqatçılar XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi hərəkatın tarixini ilkin mənbələr və ədəbiyyatlar əsasında yenidən araşdırmağa başladılar. Bu baxımdan A.Balayevin[1], İ.Bağırovanın[2], D.Seyidzadənin[3], S.Süleymanovanın[4], N.Yaqublunun[5], E.Ə.Əzizovun[6] və başqalarının elmi araşdırmalarını xüsusilə qeyd etmək lazımdır. Adı çəkilən tədqiqatçılar Azərbaycanda rus müstəmləkəsinə qarşı genişlənən milli azadlıq hərəkatının gedişində meydana çıxan və milli hərəkatı yönləndirməyə çalışan Difai, Müsavat kimi siyasi partiyaların fəaliyyətini tədqiq edərək sovet hakimiyyəti illərində qadağa altında bağlı qalan arxiv materiallarını elmi dövriyyəyə gətirmişlər. Həmin əsərlərdə siyasi partiyaların fəaliyyətinin öyrənilməsi üçün adı çəkilən müəlliflərin seçdiyi tədqiqat üsullarından mövzunun işlənməsində istifadə olunub.

Son illərdə respublikamızla yanaşı, keçmiş SSRİ-nin digər respublikalarında da çoxpartiyalılığın qurulması ilə bağlı zəngin təcrübə toplanılmış, mövzuyla bağlı çox sayda ədəbiyyatlar nəşr olunmuşdur. Təcrübi və nəzəri baxımdan daha sanballı nəşrlər Rusiya Federasiyasında meydana gəlməyə başlamışdı. Azərbaycanın çoxpartiyalı mühitində gedən proseslərin dərin müqayisəli təhlili üçün bu nəşrlərin böyük əhəmiyyəti vardır. Belə ki, Azərbaycanda və Rusiya Federasiyasında yeni yaranmaqda olan siyasi sistemin inkişafı yalnız özünə xas deyil, eyni zamanda ümumi keyfiyyətlər də daşıyırdı.

Çoxpartiyalı sistemin yaranması mövzusu ilə bağlı Azərbaycan alimlərinin də sanballı elmi araşdırmaları mövcuddur. Bu tədqiqatlarda Azərbaycanın müasir siyasi sisteminin təhlili verilərək, onun effektivliyi və özünəməxsus xüsusiyyətləri araşdırılmışdır.

---

[1] Balayev A.H. 1917-1920 ci illər Azərbaycan milli hərəkatında müxtəlif siyasi partiyaların rolu. Bakı: 1992, s. 29-34.

[2] Багирова И.С. Политические партии и организации Азербайджана в начале XX века (1900-1917). Баку: Elm, 1997, с. 336.

[3] Seyidzadə D.B. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı: Ulduz, 1998, s. 187.

[4] Süleymanova S.Y. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu–XX yüzilliyin əvvəli). Bakı: Azərbaycan kitab palatası, 1999. – 434 s.

[5] Yaqublu N.Q. Müsavat partiyasının tarixi. Bakı: 2012, s. 335.

[6] Əzizov E.Ə. Difai. Bakı: 2009, s. 359.

O.B.Sultanovun "XX əsrin 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə" adlı dissertasiyasını əsrin sonlarını işıqlandıran mühüm tədqiqatlardan biri hesab etmək olar. Müəllif tərəfindən 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində Azərbaycanda gedən siyasi proseslər tədqiq olunaraq, siyasi mübarizənin genişlənməsinə, milli hərəkatın başlanmasına xüsusi diqqət verir. Əsərdə Azərbaycanda siyasi mübarizəyə, milli hərəkata hərbi-siyasi və iqtisadi amillərlə yanaşı, beynəlxalq aləmdə baş verən proseslərin təsirindən də bəhs edilir. Dissertasiyada mitinqlərin keçirilməsi və xüsusilə, 1992-ci ilin may hadisələri və AXC-nin hakimiyyət uğrunda apardığı mübarizə geniş işıqlandırılmışdır.[1]

Ə.M.Məmmədovun "Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (80-ci illərin sonu – 1997-ci il)" adlı monoqrafiyasında 80-ci illərin axırı, 90-cı illərdə müstəqil Azərbaycan dövlətinin bərpası və onun möhkəmləndirilməsi uğrunda xalqın gərgin və ardıcıl mübarizəsi araşdırılır. XX əsrdə milli müstəqillik şüurunun təşəkkülü, onun keçdiyi çətin sınaq mərhələləri, SSRİ-nin çökməsi ərəfəsində ölkədə iqtisadi, ictimai-siyasi vəziyyət, siyasi mübarizənin və eləcə də ümummilli böhranın dərinləşməsi məsələləri təhlil olunur, müstəqil respublikanın çətin və ziddiyyətlərlə dolu olan, milli dövlət quruculuğunun yeni mərhələsinə daxil olması, dövlət çevrilişi cəhdlərinin aradan qaldırılması, bir sıra qanunvericilik akt və sənədlərinin qəbulu şərh edilir.[2]

M.Əhmədli "Siyasi partiyaların blok və koalisiyalarının formalaşması" adlı kitabında partiyaların funksiyaları, onların blok və koalisiya halında birləşərək formalaşması, siyasi plüralizm və çoxpartiyalılıq, demokratiya haqqında məlumat vermişdir. Müəllif blok halında birləşmənin əhəmiyyəti, hansı halda bloklara ehtiyac duyulduğu, hansı səbəblərə görə blokların uzun müddət mövcud ola bilməməsini elmi cəhətdən təhlil edir. Bundan əlavə siyasi blokların formalaşmasına və mövcudluğuna bir sıra amillərin təsirindən bəhs edərək, onların təşkil olunduğu elementlərə xüsusi diqqət yetirməyin vacibliyini vurğulayır.[3]

A.B.Mirzəzadə "Azərbaycan Respublikasında çoxpartiyalı sistemin

---

[1] Sultanov O.B. XX əsrin 80-ci illərin sonu 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə. Tarix elm. dok. alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. – Bakı: ADPU, 1996.

[2] Məmmədov Ə.M. Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (80-ci illərin sonu – 1997-ci il). – Bakı: Elm, 1999. – 360 s.

[3] Əhmədli M. Siyasi partiyaların blok və koalisiyalarının formalaşması. Bakı: 1998, – 310 s.

formalaşması xüsusiyyətləri" kitabında Azərbaycan Respublikasında çoxpartiyalı sistemin formalaşması təkamülünü araşdıraraq, tarixi, iqtisadi, mənəvi və digər amillərə xüsusi diqqət vermişdir. Burada eyni zamanda siyasi partiyalar dünya elmi ədəbiyyatı əsasında nəzərdən keçirilmiş, çıxarılan elmi nəticələr Azərbaycan siyasi həyatının reallıqları ilə müqayisə edilmişdir. Əsərdə eləcə də siyasi partiyaların və onların birliklərinin yaranması prosesi araşdırılmış, ölkəmizdəki çoxpartiyalı sistemin hazırkı tipi müəyyənləşdirilmişdir.[1]

Ə.M.Həsənov və A.B.Mirzəzadənin birgə müəllifi olduqları "Yeni Azərbaycan partiyası: yaranması, formalaşması və əsas fəaliyyət istiqamətləri" kitabında Yeni Azərbaycan partiyasının yarandığı tarixi şəraitdən, onun əsas siyasi-ideoloji prinsiplərindən bəhs edilir. Yeni, müstəqil Azərbaycan uğrunda mübarizəyə qoşulan ziyalıların Heydər Əliyevə müraciəti və onun bu müraciətə cavabı, Heydər Əliyevin hakimiyyətə gəlməsi, YAP-ın qurultaylarında olan çıxışları, xronoloji ardıcıllıqla kitabda verilmişdir. Müəlliflər, demək olar ki, Yeni Azərbaycan partiyasının keçdiyi fəaliyyət dövrünü tamamilə əks etdirməyə müvəffəq olmuşlar.[2]

M.Z.Həsənov "Azərbaycan Respublikasında demokratiyanın qərarlaşması və inkişafında çoxpartiyalılığın rolu" adlı dissertasiyasında əsas diqqəti Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizədə iqtidar və müxalifətyönümlü siyasi partiyaların fəaliyyətinin ümummilli mənafe baxımından əlaqələndirilməsi və onların Azərbaycan Respublikasının möhkəmləndirilməsinə xidmət etməsinə yetirmişdir. Tədqiqat işində ölkənin demokratik idarəçiliyə keçidi ilə bağlı nəzəri problemlərə xüsusi yer verilərək, onun zəruri elementlərindən biri hesab edilən çoxpartiyalılıq və ona xas olan xüsusiyyətlər ətraflı nəzərdən keçirilmişdir. Müəllif mövzunu siyasi kontekstdə tədqiq etmişdir.[3]

T.Allahyarovanın və F.Məmmədovun hazırladıqları və Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin nəşr etdirdiyi "Azərbaycanda siyasi partiyalar seçkidən-seçkiyə" kitabında isə Azərbaycanda partiyaların yaranması və dinamikasının əsas xüsusiyyətləri, partiyaların ideoloji bazası, müstəqillik dövründə siyasi məkanda mövcud

---

[1] Mirzəzadə A.B. Azərbaycanda çoxpartiyalı sistemin formalaşması. – Bakı: Azərnəşr, 2001. – 267 s.

[2] Həsənov Ə.M. Mirzəzadə A.B. Yeni Azərbaycan partiyasının yaranması, formalaşması və fəaliyyət istiqamətləri. – Bakı: "Azərbaycan" nəşriyyatı, 2002. – 200 s.

[3] Həsənov M.Z. Azərbaycan Respublikasında demokratiyanın qərarlaşması və inkişafında çoxpartiyalılığın rolu. Tarix elm. nam. alimlik dərəcəsi adını almaq üçün təqdim olunmuş dissertasiya. Bakı Dövlət Universiteti, 2005. – 167 s.

olan bloklar və birliklər haqqında ətraflı məlumat verilir. Bundan əlavə dünya təcrübəsində "partiyaların institusionallaşması" meyarının mövcudluğu qeyd edilir. İnstitusionallaşmanın əsas göstəricisinin bir partiyanın üç seçki mərhələsində uğurlu iştirakı olduğunu nəzərə alsaq, o zaman müəlliflərin qənaətincə deyə bilərik ki, Azərbaycanda yalnız bir partiya – Yeni Azərbaycan Partiyası institusionallaşa bilmişdir.[1]

Yuxarıda sadaladığımız əsərlərdə tədqiqatçılar tarixi mənbələrdən götürülmüş faktiki materialların təhlili və ümumiləşdirilməsi əsasında siyasi partiyalar probleminin yeni səpgidə öyrənilməsinə müvəffəq olmuşlar. Bu elmi əsərlər XX əsrin sonunda meydana gələn partiyaları əsrin əvvəllərində mövcud olan partiyalarla müqayisə etməyə də imkan verir.

Problemlə əlaqədar Ə.Əhmədov, M.Q.Qurbanlı, İ.Əliyevin Yeni Azərbaycan partiyasının 10 illiyi münasibətilə hazırladıqları yubiley nəşrini,[2] M.Ə.Əfəndiyev,[3] R.N.Musabəyov,[4] Q.C.Əliyev,[5] M.Yusifov[6] və başqalarının kitab və məqalələrini də çoxpartiyalılığın öyrənilməsinə aid etmək olar. Qısaca olaraq qeyd etmək lazımdır ki, bu müəlliflər tədqiqatlarında çoxpartiyalı sistemin yaranması və inkişafı ilə bağlı hərtərəfli təhlil vermiş, siyasi partiyaların keçid dövründə siyasi sistemdə və seçkilərdə rolunu qeyd etmişlər. Eyni zamanda Azərbaycan Respublikasında siyasi partiyaların yaranması, vətəndaş cəmiyyətinin qurulması, çoxpartiyalılığın inkişafı problemləri nəzərdən keçirilmişdir. Təbii ki, bütün bu problemlərin araşdırılmasında qərb siyasətçilərinin apardıqları tədqiqatlara da istinad edilmişdir. Onların tədqiqatlarında isə başlıca olaraq cəmiyyətin inkişafı prosesində siyasi partiyalar, çoxpartiyalılığın fəaliyyəti, siyasi plüralizm, müxtəlif siyasi rejimlərdə demokratiya məsələlərinə toxunulmuşdur.

Hüquqi dövlətçilik baxımından A.Bayramovun "Hüquqi dövlət və siyasi partiyalar" əsərini də dəyərli tədqiqatlar sırasına aid etmək olar.[7]

---

[1] Allahyarova T., Məmmədov F. Azərbaycanda Siyasi Partiyalar: Seçkidən Seçkiyə. Azərbaycan Respublikasının Prezidenti Yanında Strateji Araşdırmalar Mərkəzi. – Bakı: 2010. – 148 s.

[2] Yeni Azərbaycan Partiyası 10 il. – Bakı: Azərbaycan, 2002. – 216 s.

[3] Əfəndiyev M.Ə. Siyasi elmin əsasları. – Bakı: Siyasət, 2004. – 604 s.

[4] Musabəyov R.N. Demokratiyanın bərqərar olunması və inkişafında seçkilərin rolu. – Bakı: 1998. – 32 s.

[5] Əliyev Q.C. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. – Bakı: Qismət, 2003. – 248 s.

[6] Yusifov M.İ. Azərbaycançılıq. Yeni Azərbaycan partiyası. Gəncə şəhər təşkilatı. – Bakı: Elm və Təhsil, 2010. – 130 s.

[7] Байрамов А.Р. Правовое государство и политические партии. – Баку:

Problemin ayrı-ayrı məsələləri keçmiş sovet məkanında da geniş tədqiq olunmuşdur. 90-cı illərin əvvəllərində keçid dövrünü yaşayan cəmiyyətdə çoxpartiyalılığın yaranması və inkişafı probleminin işlənməsi ilə bağlı əhəmiyyətli töhfəni Butenko A.P.,[1] Timoşenko V.İ.,[2] Suslov İ.P.,[3] Vinoqradov V.D.,[4] Lepexin V.A.,[5] Diliqenski Q.Q.[6] və başqaları vermişlər.

Partiya qurumları və ictimai-siyasi birliklərin tədqiq edilməsində İ.A.Bıkov[7], A. Butenko[8], M.V.Barabanov[9] və digər tədqiqatçılar xüsusi yer tuturlar. Onlar partiyaların meydana gəlmə səbəblərini araşdıraraq siyasi partiyaların siyasi həyatda olan fəaliyyətindən geniş bəhs etmişlər. Bundan əlavə siyasi hərəkat, partiya və partiya sistemlərinin tipologiyasına müasir Rusiyada gedən siyasi proseslərin təsiri ilə bağlı məsələlərə diqqət yetirmişlər. Siyasi partiyaların yaranması və fəaliyyətinin qanunla müəyyən olunması, sovet çoxpartiyalılığının yaranması, onun üstün və mənfi cəhətləri, formalaşması prosesində qarşıya çıxan çətinliklər haqqında məlumat vermişlər. Bununla belə adı çəkilən müəlliflər ideoloji ehkamlardan uzaqlaşa bilməmiş, siyasi partiyalarla bağlı olan məsələlərə qərb demokratiyasının sindromu kimi baxaraq çoxpartiyalılığı kəskin tənqid etmişlər.

Mövcud ədəbiyyatın təhlili göstərir ki, onlarda partiyaların meydana

---

Azərnəşr, 1995. – 122 с.

[1] Бутенко А.П. Советская многопартийность: проблемы формирования. – Москва: Политиздат, 1991. – 172 с.

[2] Тимошенко В.И. Доктрина российских политических партий (теоретический очерк) // Социально-политический журнал, 1995, №3.

[3] Суслов И.П. История и теория политических партий и общественно-политических движений. – Саратов: 2005.

[4] Виноградов В.Д. Многопартийность в России: реальность или утопия // Вестник университета. Серия 6. 1993. Вып. 2.

[5] Лепехин В. А. Некоторые аспекты современного российского партогенеза // Вестник Московского университета. Серия "Социально-политические исследования". 1992. Вып. 3.

[6] Дилигенский Г.Г. Российские альтернативы // Мировая экономика и международные отношения. I993. №9.

[7] Быков И.А. Политические партии и движения // Политология: учебно-методическое пособие. – Санкт-Петербург: СПбГУТ, 2002. – с. 127-133.

[8] Бутенко А. Советская многопартийность: проблемы формирования. – Москва: Политиздат, 1991. – 172 с.

[9] Барабанов М.В. Партии и многопартийность в современной России; возникновение, основные тенденции развития. Москва: МГОУ, 2011: – 456 с.

gəlməsi, funksiyaları, tipologiyaları, siyasi sistemdə və parlamentdə onların yeri, dövlətin idarə olunmasında iştirakı və s haqqında məlumat verilməmişdir. Yuxarıda qeyd olunan tədqiqatların mühüm elmi nəticələrindən dissertasiya işində istifadə olunmuşdur. Partiyalarla bağlı olan elmi əhəmiyyətli tədqiqat işləri və nəşrlərin təhlilindən sonra belə qənaətə gəlirik ki, siyasi partiyaların hələ də siyasi proseslərin subyekti olaraq formalaşması kifayət qədər yaxşı işıqlandırılmamışdır. Bu əsərlərdə çoxpartiyalılığın yaranmasını və inkişafını, siyasi partiyaların siyasi sistem və seçki sisteminin formalaşmasında rolu ilə bağlı olan məsələlər zəif araşdırılmışdır. Bununla belə, onlardan bəhrələnərək dissertasiyada keçid dövründə cəmiyyətin, siyasi sisteminin təhlili, siyasi partiyaların yaranması və vətəndaş cəmiyyətinin qurulmasında çoxpartiyalılığın rolu və inkişaf dinamikası təhlil olunmuşdur.

**Tədqiqatın mənbə bazası.** Dissertasiya yazılarkən mövcud partiyaların cari arxivlərinin sənədlərinə və ölkədə siyasi proseslərin məzmunu, istiqamət və prinsiplərini ifadə edən sosial-iqtisadi həyatın inkişafına və başqa nəticələrə gətirib çıxaran, siyasi sistemin təkmilləşməsi üçün imzalanan fərman və ya sənədlərə üstünlük verilmişdir. Respublika Prezidentinin rəsmi çıxış, bəyanat və müsahibələri, Azərbaycan Milli Məclisinin Arxivinin (AMMA) materialları, AMTİEA (Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivinin materialları, Azərbaycan Respublikasının Konstitusiyası, Ümummilli lider H.Ə.Əliyevin və Prezident İ.H.Əliyevin çıxış və nitqləri, partiyalarla bağlı qəbul etdikləri qərarları Azərbaycanın müasir tarix elminə verilmiş böyük töhfə olmaqla yanaşı, dissertasiyanın mühüm mənbə bazasını təşkil edir.

Dissertasiyanın yazılmasında vacib hesab edilə biləcək mənbələrdən biri də Azərbaycan Respublikasında fəaliyyət göstərən siyasi partiyaların proqram və nizamnamələridir. Yeni Azərbaycan partiyasının cari arxivinin və qurultayların materiallarının sənədlərindən, Müsavat partiyasının cari arxivinin sənədləri və ayrı-ayrı nəşrləri, eyni zamanda Vətəndaş Həmrəyliyi partiyasının, Azərbaycan Xalq Cəbhəsi partiyasının, Azərbaycan Milli İstiqlal partiyasının cari arxivləri, partiyaların ayrı-ayrı nəşrləri, qurultay və konfrans materialları da qaynaq olaraq istifadə olunmuşdur.

Azərbaycan tədqiqatçılarının dissertasiya mövzusuna bu və ya digər dərəcədə müvafiq əsərləri və internet materiallarından mövzunun işlənməsində geniş istifadə edilmişdir.

İctimai-siyasi hərəkatların idarəedici orqanları tərəfindən qəbul edilən qərarlar Azərbaycanda çoxpartiyalı sistemin qurulmasına xidmət etməklə partiyaların mübahisəli məsələlərdə mövqeyini aydın görməyə köməklik

göstərir. Bu da öz növbəsində Azərbaycanın ictimai, siyasi və iqtisadi inkişafına da təsir etməkdədir. Sadalanan bu mənbələr qarşıya qoyulan problemin dərindən və geniş araşdırılmasına imkan vermişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin yazılmasında əsas məqsəd Azərbaycan Respublikasında çoxpartiyalı sistemin formalaşmasının xüsusiyyətlərini müəyyənləşdirmək və bugünkü çoxpartiya rəngarəngliyi fonunda onların fəaliyyət mexanizmini üzə çıxarmaq, Azərbaycanda çoxpartiyalı sistemin formalaşmasını ölkənin sosial və siyasi sisteminin işıqlandırılması vasitəsilə siyasi partiyaların təkamülünü araşdırmaqdır.

Dissertasiyada aşağıdakı vəzifələrin yerinə yetirilməsinə səy göstərilmişdir.

– siyasi partiyaların hakimiyyət uğrunda mübarizədə iştirakını, konkret siyasi kursun müdafiəsi funksiyalarını Azərbaycan siyasi həyatının reallıqlarına uyğun nəzərdən keçirmək;
– müstəqillik uğrunda mübarizə və milli hərəkatın inkişaf dövrünü təhlil etmək;
– siyasi partiyaların sosiallaşmasını, hakimiyyət uğrunda mübarizədə iştirakını, konkret siyasi kursun müdafiəsi funksiyalarını Azərbaycan siyasi həyatının reallıqlarına uyğun nəzərdən keçirmək;
– siyasi partiya və partiya birliklərinin ictimai-siyasi proseslərdə iştirakı, onların hakimiyyətin həyata keçirilməsi mexanizmində rolunu aydınlaşdırmaq;
– partiya rəhbərliyinin və fəaliyyətinin, onların nüfuz və səriştəsinin, partiya problemlərinin araşdırılmasına nail olmaq;
– siyasi sistemin mühüm komponenti kimi çoxpartiyalılığın rolu və əhəmiyyətini nəzəri cəhətdən əsaslandırmaq;
– Azərbaycanda siyasi partiyaların, ictimai təşkilatların yaranmasını, inkişafının xüsusiyyətlərini, onların demokratik cəmiyyətdə baş verən proseslərdəki rolunu təhlil etmək;
– Azərbaycanın müasir şəraitində dünya siyasətinin çoxpartiyalılığın dinamik inkişafına tətbiqi, partiyaların, xüsusilə, Yeni Azərbaycan partiyasının vətəndaş cəmiyyətinin formalaşmasında konkret rolunu vermək;
– partiyaların təsnifatı, siyasi fəaliyyətinin əsas istiqamətləri, parlament fəaliyyətini işıqlandırmaq;
– partiyaların koalisiyada davranış qaydalarını, onların bir-birlərinə nəzərən statistik, dinamik və ideoloji uyğunluğunu öyrənmək;
– Respublikada çoxpartiyalılığın formalaşması amillərini aydınlaşdırmaq, partiya təkamülünə tarixi proseslərin əksi prizmasından bax-

maq;

– çoxpartiyalılığın inkişaf istiqamətlərini dəqiqləşdirmək, gözlənilən problemlərin təxmini çərçivəsini müəyyənləşdirmək;

– Partiyaların təsnifatı, siyasi fəaliyyətinin əsas istiqamətləri, parlament fəaliyyəti işıqlandırılır.

**Dissertasiya işinin metodoloji əsasını** analiz, sintez, ümumiləşdirmə, induksiya və deduksiya, tarixilik və müqayisəli təhlil metodları təşkil edir.

Dissertasiyanın mühüm nəzəri və metodoloji bazasını çoxpartiyalılığın spesifik keyfiyyətlərinin meydana gəlməsində, müstəqil siyasətin və onun prinsiplərinin formalaşmasında böyük əhəmiyyət kəsb edən ümummilli lider H.Əliyevin çıxış və nitqlərindəki müddəaları təşkil edir. Tədqiqat üçün Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin yeni elmi ideologiyaya və tarixi prinsipə istinad edilən çıxışları qiymətlidir. Onlarda azadlıq konsepsiyası, yeni demokratik, xüsusilə, hüquqi dövlət quruculuğuna keçid dövrünün strategiya və taktikası, suverenliyin möhkəmləndirilməsinə yönəldilən tədbirlər, tarixi keçmiş, dövlətçiliyin qorunması, elm və mədəniyyət nailiyyətləri, respublikanın inkişafına yönələn qlobal yanaşma, çoxpartiyalılığa rəvac verməklə bağlı fikir və tövsiyələri ifadə edilmişdir.

–Demokratiyaya keçməkdə olan Azərbaycan Respublikasında müasir cəmiyyətin strukturunda, sosial bazar iqtisadiyyatında, partiyaların sənədləri və siyasi təcrübəsi geniş miqyasda araşdırılır.

–Azərbaycan Respublikasının mədəni, spesifik xüsusiyyətləri və ənənələri sosial siyasətin hazır modellərindən və qərbin tarixi partiya təcrübəsindən yararlanmağa imkan verməyən sovet dövründə formalaşan zehniyyətlə əlaqəlidir.

–Tədqiqat işində müqayisəli təhlildən istifadə edilərək, müasir Azərbaycan Respublikasında ictimai münasibətlərin dəyişilməsindən bəhs olunur.

Bütün bunlar cəmiyyətin siyasi sistemində baş verən ümumi prosesləri, hər hansı konkret bir partiyanın inkişafında olan problemləri, onlar üçün nəticə çıxarılaraq məsləhətlər verməyi qiymətləndirməyə icazə verir. Bu da dissertasiyanın əsas müddəalarını və yekununu müəyyənləşdirməyə kömək edir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiq olunan mövzunun elmi yeniliyi ilk növbədə işin məqsədindən və araşdırılan məsələlərin yeniliyindən irəli gəlir.

Tədqiqat işində aşağıdakı məsələlər ilk dəfə araşdırılaraq onların yeni cəhətlərinin üzə çıxarılmasına cəhd göstərilir:

– mövzuya tarixi baxımdan ilk dəfə kompleks yanaşılır;

– Azərbaycan Respublikasında çoxpartiyalı sistemin inkişafı, ideyalarının xarakterik xüsusiyyətləri verilir;
– Azərbaycanda mövcud olan çoxpartiyalı sistemin tipi, siyasi partiyalaşmanın müsbət və mənfi nəticələri təhlil edilir;
– partiyaların fəaliyyəti ilə cəmiyyət arasında münasibət müəyyən olunur, partiya sistemlərinin fəaliyyəti tənqidi qiymətləndirilir;
– müasir dövrdə Azərbaycan cəmiyyətinin inkişafına siyasi partiyaların fəaliyyətinin təsirinin ilk dəfə çox aşağı səviyyədə olduğu faktlarla əsaslandırılır və partiyaların üzvlərinin sayı və seçkilərdə iştirakı cədvəl və diaqramlarda təqdim olunur.

İşin elmi yeniliyini indiyədək istifadə edilməmiş bir sıra mənbə və arxiv materiallarının tədqiqata cəlb olunması, mənbə və materiallara müraciət təşkil edir. Dissertasiya işinin yeniliyi həm də Azərbaycan Respublikasında çoxpartiyalı sistemin və siyasi plüralizmin vəziyyəti və inkişafı ilə bağlı müxtəlif elmi yanaşmaların tarixi, siyasi və hüquqi müstəvidə üzə çıxarılmasından ibarətdir. Bütün bunlar tarixi baxımdan mövzuya çox aspektli yanaşmağa imkan verir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiyada əsaslandırılmış fikirlər, tövsiyələr və nəticələr dövlət orqanları tərəfindən partiyalar və bütün ictimai təşkilatlar ilə bağlı real praktiki siyasətin inkişafında, müxalifətə münasibətdə istifadə oluna bilər. Şübhəsiz, bütün bunlar ictimai həyatın daha da demokratikləşməsinə hesablanmış müddəalardır.

Dissertasiya işinin əsas müddəaları və nəticələrindən elmi-tədqiqat işlərinin yazılmasında, Azərbaycan tarixinə dair dərslik, dərs vəsaiti və digər ümumiləşdirilmiş əsərlərin hazırlanmasında, ali və orta ixtisas məktəblərinin müvafiq fakültələrində mühazirələrin oxunmasında, seminarların keçirilməsində və buraxılış işlərinin yazılmasında istifadə edilə bilər.

Nəzəri nəticələr və müddəalar dövlət orqanlarının, siyasi partiyaların liderlərinin, Milli Məclisdəki partiya fraksiyaların rəhbərlərinin, siyasətçilər, tarixçilər və sosioloqların marağına səbəb ola bilər. Dissertasiyada araşdırılan məsələlərin qoyuluşu və nəticələri partiya və hərəkatların əməli fəaliyyətlərində əhəmiyyətli ola bilər.

**Tədqiqatın aprobasiyası.** Tədqiqatın əsas elmi nəticələri və məzmunu dissertantın çap etdirdiyi elmi məqalələrində və elmi praktiki və beynəlxalq elmi konfranslarda etdiyi məruzələrində (cəmi 11) öz əksini tapmışdır. Dissertasiya BDU-nun "Azərbaycan tarixi (humanitar fakültələr üzrə)" kafedrasında iki dəfə müzakirə olunmuşdur.

**Dissertasiyanın strukturu.** Dissertasiya "Giriş", üç fəsil, "Nəticə", istifadə edilmiş mənbələr və ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, xronoloji çərçivəsi göstərilmiş, mövzunun öyrənilmə səviyyəsi araşdırılmış, mənbə bazası təhlil edilmiş, metodoloji əsası müəyyənləşdirilmiş, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti şərh olunmuşdur.

**"XX əsrin 80-ci illərin sonu 90-cı illərin əvvəlində Azərbaycanın ictimai siyasi vəziyyəti"** adlanan I Fəsil iki paraqrafdan ibarətdir. Fəsildə 80-ci illərin sonu 90-cı illərin əvvəllərində Azərbaycanda baş verən siyasi hadisələr və onların gətirib çıxartdığı nəticələrdən bəhs olunur.

Fəslin "**Müstəqillik uğrunda gedən mübarizə şəraitində ölkənin ictimai siyasi durumu"** adlanan birinci paraqrafında 80-ci illərin ortalarından etibarən SSRİ-də gedən proseslərin təhlili verilmiş, xüsusi olaraq iqtisadiyyatda baş verən tənəzzül, onun dərinləşərək böhranla nəticələnməsi, böhrandan çıxmaq üçün görülən tədbirlər və bütün bu tədbirlərin istənilən nəticəni verməməsi və imperiyanın labüd süqutunun qarşısının alına bilinməməsindən bəhs olunmuşdur. Burada sovet partiya rəhbərlərinin SSRİ-də baş verən siyasi və iqtisadi dəyişiklikləri yenidənqurma adlandırdığı illər, həmçinin bu nəhəng dövlətin dağılmasına gətirib çıxaran amillər araşdırılmışdır. Kommunist partiyasının rəhbər mövqe tutduğu bir dövrdə – 80-ci illərin sonunda DQMV-nin statusuna baxılması barədə SSRİ Ali Sovetinə müraciətin qəbul edilməsi, "Meydan hərəkatı" adını alan kütləvi mitinqlərin keçirilməsi Əbülfəz Elçibəyin rəhbərliyi altında ilk siyasi özəyin yaradılmasına səbəb oldu. Xalqın təşkilatlanmağa və siyasi şüurunun yüksəldilməsinə olan ehtiyacı siyasi birlik və cəmiyyətlərin yaradılmasını şərtləndirirdi.

Lakin ermənilər tərəfindən Azərbaycana qarşı törədilən cinayətlərin ardı-arası kəsilmirdi. Sumqayıt hadisələrindən sonra, 1990-cı il yanvarın 20-də Sovet hərbi hissələrinin Bakıya və Azərbaycanın digər bölgələrinə təcavüzü, mülki əhalinin kütləvi surətdə vəhşicəsinə güllələboran edilməsi sovet rəhbərlərinin antiazərbaycan siyasətinə sübut idi. Yüksək dairələrdə sovet dövlət orqanlarının rəhbərlik və təşkilatçılıq rolunun zəifləməsi kütlələr içərisində partiya siyasi işinin səviyyəsinin aşağı düşməsi ilə izah edilirdi. Əslində isə sovet rejimi artıq çürümüşdü. Bütün bu məsələlər yarımfəsildə ətraflı işıqlandırılmışdır.

Fəslin ikinci yarımfəsli "**Müstəqilliyin əldə edilməsindən sonra hə-**

**yata keçirilən ilk demokratik dəyişikliklər"** adlanır. Azərbaycan Respublikası dövlət müstəqilliyinin bərpa edilməsi haqqında "Azadlıq Bəyannaməsinin" qəbul edilməsi, Kommunist partiyasının 33-cü fövqəladə qurultayını çağıraraq özünü buraxdığını elan etməsi[1] və nəhayət 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edilməsi ilə Azərbaycan öz müstəqilliyini bərpa etdi.

Burada eyni zamanda partiyasız demokratiyanın mövcud ola bilməyəcəyi, hər bir partiyanın proqram, nizamnamə və məramnaməsinin olması, nizamnamələrdə partiyanın məqsəd və vəzifələri, onun strukturu, partiya üzvlüyünə qəbul olmağın və ondan çıxmağın şərtləri və qaydası, üzvlərin hüquq və vəzifələrindən bəhs olunur.

90-cı illərdə torpaqlarımıza qarşı erməni təcavüzünün genişlənməsi və Qarabağın Kərkicahan, Malıbəyli, Quşçular kəndlərinin ələ keçirilməsi, Xocalı və Şuşanın mühasirəyə alınması, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı soyqırımının törədilməsi işıqlandırılmışdır.

3 iyun 1992-ci il tarixli "Siyasi partiyalar haqqında" qanunun qəbul edilməsi və bu qanunun yeni yaradılan partiyalarının fəaliyyətinin tənzimlənməsinə tətbiq olunması Azərbaycan Respublikasının siyasi həyatında mühüm hadisə hesab edilməli idi.[2] Xalq cəbhəsinin hakimiyyəti dövründə qeyri-sabit ictimai-siyasi vəziyyətin olmasına baxmayaraq, çoxpartiyalılığın inkişafına təkan verə biləcək "Siyasi partiyalar haqqında" qanunun qəbul edilməsi demokratiyanın sözdə deyil, əməldə olduğunu bir daha sübut etdi. H.Əliyevin yenidən siyasi hakimiyyətə qayıdaraq Yeni Azərbaycan partiyasının sədri və 1993-cü il iyunun 15-də Ali Sovetə sədr seçilməsi, həmin ilin oktyabrında 98,8% səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçilməsi haqqında məlumat verilir. Heydər Əliyev prezident seçildikdən sonra dövlətçiliyi möhkəmləndirmək üçün mühüm tədbirlər həyata keçirdi.

1994-cü il mayın 12-də Bişkek protokoluna əsasən cəbhədə atəşkəsə nail olunması, 1994-cü il sentyabrın 20-də müstəqil Azərbaycanın tarixində mühüm hadisə hesab edilə biləcək "Əsrin müqaviləsi"nin imzalanması, XX əsrin sonlarında Bakı-Tbilisi-Ceyhan neft ixrac boru kəmərinin inşası haqqında bəyannamənin qəbul edilməsi və sahədə həyata keçirilən tədbirlər əsərdə ətraflı işıqlandırılmışdır.

"**Azərbaycan Respublikasında çoxpartiyalı sistemin təşəkkülü"** ad-

---

[1] Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı // "Həyat" qəzeti. 19 dekabr 1991.

[2] Siyasi partiyalar haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1992, s.11.

lanan ikinci fəsil də iki yarımfəsildən ibarətdir. Fəsildə çoxpartiyalı sistemin yaranması, partiyaların siyasi fəaliyyətinə və onların təsnifatına geniş yer verilir.

**"Çoxpartiyalı sistemin yaranması və partiyaların təsnifatı"** adlanan birinci yarımfəsildə 80-ci illərin əvvəllərində sovet cəmiyyətinin siyasi sisteminin mürəkkəb və ziddiyyətli xarakter daşıması, bürokratik sistemlə demokratik forma arasındakı ziddiyyət özünü xüsusilə göstərirdi. Bu dövrdə Azərbaycanın vahid xalq təsərrüfatı kompleksində payının çoxalması, ictimai-siyasi və mənəvi həyatın bütün istiqamətlərində böyük irəliləyiş əldə edilmişdi. Bu nailiyyətlər bilavasitə H.Əliyevin fəaliyyəti ilə bağlı olmuşdur. Bu dövrdə xalq hakim partiyadan ümidini üzdüyündən Kommunist partiyasına müxalif olan təşkilatlar yaranmağa başladı, ölkədə plüralizmin və onun əsasında çoxpartiyalılığın ilkin rüşeymləri formalaşdı. Genişlənən nümayişlər və mitinqlər qruplaşmaların formalaşdığını açıq-aydın göstərirdi.

Paraqrafda Xalq hərəkatının gedişində yaranan və Azərbaycan tarixində mühüm rol oynamış təşkilatlardan biri Azərbaycan Xalq Cəbhəsinə idi. AXC-nin yaranması Azərbaycanda çoxpartiyalılıq üçün zəmin yaradaraq gələcəkdə ölkəmizdə çoxpartiyalı siyasi sistemin formalaşması, demokratiyanın bərqərar olması üçün ilkin baza rolunu oynamışdı.

XX əsrin 80-ci illərinin sonu – 90-cı illərin əvvəllərindən Azərbaycanda siyasi partiyalar formalaşmağa başlamışdı. Bu yarımfəsildə Azərbaycanda partiyaların yaranmasına gətirib çıxaran siyasi şərait, ilkin olaraq cəmiyyət və təşkilatların yaranması, AXC-nin partiyalaşma dövründəki rolu, AMİP, Müsavat, YAP, Bozqurd partiyalarının fəaliyyətə başlaması haqqında məlumat verilir.

Çoxpartiyalılığa keçid XX əsrin 90-cı illərində Azərbaycan cəmiyyətinin təkamülünün ən mühüm nailiyyətlərindən biri olmuşdur. Bu yarımfəsildə təkpartiyalılıqla çoxpartiyalılığın müqayisəli təhlili, onların müsbət və mənfi cəhətləri verilmiş, siyasi məramına görə ləğv edilən partiyalar, partiyaların sayının seçki ərəfəsində artmasından bəhs olunur.

Dissertasiyada AXCP, YAP, Müsavat, VHP, AMİP kimi hakimiyyətdə olmuş, yaxud parlamentdə təmsil olunan partiyaların ayrı-ayrılıqda məqsəd və vəzifələri müqayisəli şəkildə təhlil edilir.

**"Partiyaların siyasi fəaliyyətlərinin əsas istiqamətləri"** adlanan ikinci yarımfəsil siyasi partiyaların əsas funksiya, maraq və məqsədlərinin ümumiliyi fonunda vətəndaşlarını birliyinə çalışılmasından və onların sosial-siyasi baxımdan maarifləndirilməsindən, cəmiyyətdə siyasi partiyaların yeri və rolu, onların cəmiyyətlə qarşılıqlı əlaqəsindən söhbət açılır, cəmiyyətlə partiyalar arasındakı münasibətlər, xüsusilə də YAP, Müsavat, AVP,

VHP, Kommunist partiyalarının siyasi fəaliyyətlərinin təhlilinə diqqət yetirilir. Partiyaların bir qisminin irəli sürdükləri prinsiplər digər partiyaların mülahizələrindən yalnız formasına görə fərqlənir, mahiyyət isə eynidir. Təhlil zamanı YAP-ın bu sahədə digər partiyalardan əsaslı surətdə fərqləndiyi müşahidə olunmuşdur. Onun gördüyü bütün tədbirlər proqramı ilə irəli sürdüyü məqsədlər eynilik təşkil edir.

Müsavat partiyası da öz növbəsində özünə xas olan prinsiplərlə çıxış edirdi. Bunlar istiqlalçılıq, millətçilik, dövlətçilik, türkçülük, islamçılıq və müasirlik və s.-dir.

Burada diqqəti xüsusilə çəkən irəli sürülən prinsiplərin elə mahiyyətcə eynilik təşkil etməsidir. Təhlilin nəticəsi olaraq partiyaların hamısının bir amalı özlərinə məqsəd kimi seçmələri və bu məqsəd naminə mübarizə aparmaqlarıdır. Adları fərqli olan bu amallar elə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması, işğal olunan ərazilərin yadellilərdən azad olunması üçün müəyyən tədbirlər görülməsi və xalqın rifahının yüksəlməsidir.

Bu yarımfəsildə partiyaların öz məqsədlərinə nail olmaq üçün hansı məqsədləri əsas vəzifə hesab etmələri, dövlət hakimiyyətinin formalaşmasında bütün səviyyələrdə iştirak etmələri haqqında da məlumat verilir.

**III fəsil "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmləndirilməsində partiyaların rolu"** adlanır. Sonuncu fəsil də iki yarımfəsildən ibarətdir. **"Partiyaların parlament fəaliyyətləri"** adlanan birinci yarımfəslində partiyaların siyasi sistemdəki rolu, onun yerinə yetirdiyi xarici və daxili funksiyalar, seçkilərin müasir cəmiyyətimizdəki funksiyaları, seçkilərin əhəmiyyəti, partiyaların fəaliyyət formaları haqqında məlumat verilir. Parlament fəaliyyəti seçkilərarası dövrdə partiyaların siyasi mübarizəsinin daha əhəmiyyətli forması hesab olunaraq, cəmiyyətin bütün siyasi həyatına dinamizm verir. Seçki sistemləri haqqında məlumat verilir, 1995, 2000, 2005, 2010-cu illərdə keçirilən parlament seçkilərində partiyaların iştirakı və keçirilən bu parlament seçkilərinin nəticələri müqayisəli təhlil olunur. Müxalif partiyaların blok şəkilində birləşsələr belə, heç bir uğur əldə etməməklərinə də diqqət yetirilir.

1993, 1998, 2003, 2008-ci illərdə keçirilən prezident seçkiləri, onların nəticələri, seçilən namizədin uğur əldə etməsinin və digər namizədlərin uğursuzluqlarının səbəbləri verilmişdir. Partiyaların əksəriyyətinin uğursuzluğunun səbəbi onlar üçün vacib olan xalq kütləsinin dəstəyinin olmamasıdır. Xalqın dəstəyinin əsas göstəricisi keçirilən demokratik seçkilərdir. Seçki kampaniyalarında irəli sürdükləri müddəaları həyata keçirməyə səy göstərməkdənsə, onlar seçkilərdə daha çox bir-birləri ilə mübarizə aparırlar.

Bununla belə qənaətə gəlmək olar ki, müstəqillik əldə ediləndən sonra Azərbaycanda formalaşmaqda olan partiya sistemi öz inkişafında bir qütbdən digərinə doğru və əksinə kəskin meyl etmiş, sovet dövrünün bir palatalı statik sistemindən – XX əsrin 90-cı illərindən çoxpartiyalı sistemə keçid baş vermişdir.

İkinci yarımfəsilil "**Dövlət siyasətinin həyata keçirilməsində partiyaların rolu və çoxpartiyalılığın inkişaf perspektivləri**" adlanır.

Heydər Əliyev müstəqil dövlətçiliyimizi sağlam əsaslar üzərində qurmaqla Azərbaycanda hüquqi dövlət və vətəndaş cəmiyyətinin yaradıldığını bütün dünyaya nümayiş etdirdi. İqtidarda olan YAP Dağlıq Qarabağ münaqişəsinin həlli üçün fəal şəkildə xarici siyasətini həyata keçirməyə başlamışdı. Bundan əlavə YAP Ermənistanın işğalçılıq siyasətinin mahiyyətini, onun Azərbaycan əleyhinə apardığı təbliğatın əsassız olduğunu tutarlı arqumentlərlə dünya ictimaiyyətinə çatdırmışdı.

Bu yarımfəsildə təbii olaraq YAP-ın fəaliyyətinə üstünlük verilmişdir. Çünki bu sahədə böyük nailiyyətlər əldə edən yeganə partiya elə odur. Onun hakimiyyətdə olduğu dövrdə ölkədə baş verən dəyişikliklər, digər partiyaların isə öz proqramlarında bəlli sahələr üzrə verilən məramlar müqayisəli təhlil edilir. Say kriteriyasına görə Azərbaycandakı müxalifət partiyaları kütləvi deyil, amma mövcud olan partiyaların xarakterik xüsusiyyətləri araşdırılır.

Bütün demokratik cəmiyyətlər üçün çoxpartiyalılıq səciyyəvidir. Ölkədə hansı partiyanın üstünlüyü mövcuddursa, onun mənafeyini təmsil etdiyi təbəqənin üstünlüyü ilə də partiya sistemi təşəkkül tapır. Bunlarla yanaşı, mojaritar və proporsional seçki sistemləri haqqında da məlumat verilir.

Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı İlham Əliyev 2003-cü ildən etibarən Azərbaycan Respublikasının prezidentidir. Dövlət başçısının son illər müxtəlif sahələrdə həyata keçirdiyi tədbirlər iqtisadi inkişafa gətirib çıxarır. İ.Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanın xarici siyasəti, regionların inkişafı və digər məsələlərlə bağlı məsələlərə diqqət yetirir. Çoxpartiyalılıq demokratiyanın əsas şərtidir. Xalq kütlələrinin xırda təfərrüata qədər maraqlarını ifadə edən partiyaların fəaliyyəti çoxpartiyalılığın perspektivinə aid olan başlıca məsələ kimi bu gün də aktualdır.

Dissertasiyanın **«Nəticə»** hissəsində tədqiqatda ümumiləşdirmələr aparılmış, əldə olunmuş nəticələr təhlil edilmiş və elmi araşdırmalara yekun vurulmuşdur.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi işlərində öz əksini tapmışdır**:

1.Yeni Azərbaycan partiyasının yaranması və fəaliyyətində Ümummilli liderimiz Heydər Əliyevin rolu // Doktorların və gənc tədqiqatçıların XIV Respublika elmi konfransı. Bakı: 2010. S. 214-216.
2. Azərbaycanda demokratik cəmiyyətin formalaşmasında siyasi partiyaların rolu // Doktorların və gənc tədqiqatçıların XV Respublika elmi konfransı. Bakı: 2011. S. 70-72.
3. Azərbaycanda partiyaların siyasi fəaliyyətlərinin əsas istiqamətləri // Tarix və onun problemləri. Bakı: №4, 2011. S. 128-133.
4. Azərbaycanda çoxpartiyalı sistemin xüsusiyyətləri // Bakı Universitetinin xəbərləri. Bakı: №4, 2011. S. 192-198.
5. XX əsrin sonlarında Azərbaycanda siyasi partiyaların təşkilatlanma prosesi // Pedaqoji Universitetin Xəbərləri. №1, 2012. S. 144-148.
6. Azərbaycan Respublikasının ictimai-siyasi həyatında siyasi partiyaların rolu // Tarix və onun problemləri. Bakı: №1, 2012. S. 126-130.
7. Роль политических партий в строительстве независимого, правового, демократического государства в Азербайджане // Вестник Московского Государственного Лингвистического Университета. Спецвыпуск 2 (627). Москва: 2012. S. 74-97.
8. Azərbaycanda siyasi partiyaların təşəkkül prosesi // Azərbaycan Respublikası Prezidentinin yanında DİA. H.Əliyevin Dövlətçilik irsi və Müstəqil Azərbaycanın inkişaf modeli mövzusunda doktorant və dissertantların elmi konfransı. "Mütərcim" nəşriyyatı. 2012. S. 301-308.
9. О перспективах развития многопартийной системы // Материалы международной научной конференции «Язык, культура, этикет в современном политическом пространстве». Нальчик: 2012. S. 269-273.
10. Azərbaycan xalqının müstəqillik uğrunda gedən mübarizəsi və siyasi durum // Bakı Universitetinin xəbərləri. Bakı: №3, 2013. S. 134-1.
11. Факторы, обуславливающие зарождение многопартийности в Азербайджане // Гилея: научный вестник. Выпуск 81 (№2). 2014. S. 99-102.

**Дж.М.Аскерова**

# СТАНОВЛЕНИЕ МНОГОПАРТИЙНОЙ СИСТЕМЫ В АЗЕРБАЙДЖАНЕ В ПЕРИОД НЕЗАВИСИМОСТИ (1991-2008 гг.)

## Резюме

Представленная к защите диссертация, посвященная становлению многопартийной системы в Азербайджанской Республике, состоит из введения, трех глав, заключения, списка источников и литературы и приложений. С исторической точки зрения данная тема вызывает огромный интерес своей актуальностью и впервые вводится в научный обиход. Следует отметить так же, что проблема многопартийности отличается новизной и тем самым находится в центре внимания ученых, в частности историков. Поэтому переход к многопартийности после восстановления государственной независимости республики открыл путь к развитию демократии, что сыграло решающую роль в формировании гражданского общества в Азербайджане.

В первой главе «Общественно-политическое положение Азербайджана в конце 80-х – начале 90-х гг. XX века» анализируются процессы, происходящие в СССР начиная с середины 80-х гг., оккупирование территории Азербайджана армянскими захватчиками, раскрываются роль народа в освободительной борьбе против агрессоров, принятые меры в укрепление государственного строительства, а также анализируется принятый Милли Меджлисом «Закон о политических партиях».

Во второй главе диссертации «Формирование многопартийной системы в Азербайджанской Республике» рассматриваются факторы, обусловившие создание многопартийной системы, и их формирование.

В третьей главе «Роль политических партий в укреплении государственной независимости Азербайджанской Республики» дается анализ парламентской деятельности политических партий и перспективы развития многопартийности.

В заключении обобщаются основные положения работы и анализируются полученные результаты.

**J.M.Asgarova**

## The ESTABLISHMENT of a MULTIPARTY SYSTEM in AZERBAIJAN DURING the INDEPENDENCE (1991-2008 years)

### Summary

The dissertation consists of the introduction, three chapters, conclusion, bibliography and appendixes. From the historical view point, the theme for the first time is being involved to research. The problem of multiparty system was in the focus of scholars, especially historians. Research of multiparty system became feasible after the restoration of state independence of the Republic, which was the transition to democracy. The development of a multiparty system played a crucial role in the formation of civil society in Azerbaijan.

In Chapter I titled as "Socio-political situation in Azerbaijan in late 80s - early 90s of the XX century" processes taking place in the Soviet Union since the mid 80s, the occupation of Azerbaijani territory by Armenian occupiers are analyzed, the role of the people in the liberation struggle and the measures taken to strengthen the state-building is emphasized, the 'Law on Political Parties" is elucidated as well.

In Chapter II of the dissertation "The formation of a multiparty system in Azerbaijan Republic" the factors that led to the establishment of a multiparty system, as well as the activities of political parties are viewed.

In Chapter III entitled as "The role of political parties in the strengthening of state independence of Azerbaijan Republic" the parliamentary activities of political parties are analyzed and the perspectives of development of a multiparty system are viewed.

In the conclusion the main propositions of the work are summarized and the results are analyzed.

Əla növ kağız, formatı 60x84 - $^{1}/_{16}$
Tirajı 100 nüsxə
AMEA TIKM

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**АСКЕРОВА ДЖАМАЛА МЕХМАН гызы**

# СТАНОВЛЕНИЕ МНОГОПАРТИЙНОЙ СИСТЕМЫ В АЗЕРБАЙДЖАНЕ В ПЕРИОД НЕЗАВИСИМОСТИ

**Специальность: 5503.02 – Отечественная история**

# А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по истории

**БАКУ – 2014**